Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

## 14-cü istiqamət: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi




# Prezident Əliyev xaricdəki Azərbaycan diasporunun ciddi bir problemini aktuallaşdırdı - soydaşlarımızın investisiyası...

**Prezident İlham Əliyev diasporumuzla bağlı daha bir maraqlı məqama toxunub. Bizim özümüz də dəfələrlə diasporumuzun axsaq yeri olan bu detalla bağlı yazılar yazmışıq. Hətta nə qədər arzuolunmaz sayılsa da, bu istiqamətdə düşmən erməni diasporu ilə müqayisələr də aparmışıq. Əldə olunan nəticələr isə heç də qənaətbəxş olmayıb.**

Söhbət xaricdə yaşayan, diasporumuzun bir parçası sayılan soydaşlarımızın ölkəmizə olan diqqətindən gedir. Xüsusilə də onların sırasında olan imkanlı adamların vətənə yatırım etmək, bura ilə daha sıx tellərlə bağlanmaq həvəsinin zəifliyi nəzərə çarpır. Gəlin, ölkə başçısının Sumqayıt Kimya Sənaye Parkının nəzdindəki Peşə Təhsil Mərkəzinin açılışında söylədiyi fikirlərə diqqət edək:

**"Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, Azərbaycana investisiya axını dayanmayacaq"**

"Xarici investorların ölkəmizə marağı artır, mən yerli investorları da istiqamətləndirmişəm ki, Azərbaycana pul qoysunlar. Beləliklə, burada inkişaf o qədər sürətli olmalıdır ki, həm işsizlik aşağı səviyyədə olsun, həm idxaldan asılılıq minimuma endirilsin, həm də ixrac qabiliyyətli məhsullar istehsal edilsin".

Dövlət başçısı deyib: "Mən çıxışımda xaricdə yaşayan azərbaycanlı iş adamlarına da müraciət edirdim ki, onlar da gəlib Azərbaycana vəsait qoysunlar. Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar. Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, onda Azərbaycana investisiya axını dayanmayacaq. Bizim də əsas məqsədimiz budur. Xüsusilə dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə biz elə addımlar atmalıyıq ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında olaq və dərhal, vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olaq".

**"Cənab Prezidentin bu barədə çıxışı təqdirəlayiqdir"**

Göründüyü kimi, ölkə başçısı bununla bağlı ən ali iradəni ortaya qoyaraq soydaşlarımıza yaşıl işıq yandırıldığını bəyan edib. Bəs xaricdə yaşayan soydaşlarımızın bu istiqamətdəki fəaliyyətini necə, qənaətbəxş saymaq olarmı? Diasporumuzda ölkəyə pul qoymalı adamlar varmı?

Xaricdəki diaspor təşkilatlarından birinin rəhbəri - Moskva Azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev Prezidentin fikirlərini təqdirəlayiq hal hesab etdiyini deyib:

"Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərlə xaricdə yaşayan hər bir azərbaycanlı razıdır. Moskvada uzun illərdir ki, "bazar günü məktəbləri" fəaliyyət göstərir. Təəssüf ki, bu il pandemiya səbəbindən o məktəbləri aça bilmədik. Həmin məktəblərdə Azərbaycan dili, ədəbiyyatı, tarixi tədris olunur, ölkəmizə aid olan görüşlər, tədbirlər keçirilir. Azərbaycan icması fəaliyyətini bu istiqamətdə qurub. Həm evdə, həm də ictimai fəaliyyətimizdə övladlarımızın milli ruhda böyüməsinə çalışırıq. Təəssüfedici məqamlar da var. Bəzən olur ki, övladlarını burda hansısa məktəbə qoyurlar. Ancaq uşaq öz adət-ənənəsini, dilini, mədəniyyətini bilmir. Bir müddət keçəndən sonra valideynlər yanlış yolda olduqlarını dərk edirlər. O səbəbdən də hesab edirəm ki, cənab Prezidentin bu barədə çıxışı təqdirəlayiqdir. Son zamanlar Diasporla İş üzrə Dövlət Komitəsi qeyd edilən sahələrə xüsusi önəm verir. Təbii ki, bu, diasporla bağlı Prezidentimizin qarşıya qoyduğu vəzifədir. Hər bir azərbaycanlı bu çağırışı yüksək qiymətləndirir".

**"Hesab edirəm ki, ölkə başçısının son çıxışı bu sahədə irəliləyişə səbəb olacaq"**

Ölkə başçısı çıxışında diasporumuzun qarşılaşdığı problemlə bağlı iki mühüm məqama toxunub. Onlardan biri soydaşlarımızın övladlarının milli ruhda böyütməsinin zəruriliyi, digəri isə imkanlı soydaşlarımızın ölkəmizə investisiya yatırmaqda maraqlı olmaları ilə bağlı real vəziyyətin necə olduğuna dair verdiyi izahdır. Təhlillər göstərir ki, hər iki istiqamətdə ciddi problemlər yaşanır.

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, diasporla işin bütün istiqamətlər üzrə yüksək səviyyədə qurulmasının ölkəmizə yalnız faydası ola bilər: "Diaspora yalnız xaricdə yaşayan milliyyətcə azərbaycanlılardan ibarət deyil. Bizim diasporumuzda başqa millətlərin də təmsilçiləri ola bilər. Son Tovuz hadisələrində biz bunun şahidi olduq. Məsələn, İsraildəki yəhudi əsilli soydaşlarımız ermənilərə əsl dərs verdilər. Dünyanın bir çox ölkələrində olan qeyri millətlərin nümayəndələri bizimlə çiyin-çiyinə dayanıb səfirliklərimizi mühafizə etdilər. Bu adamların hər biri diasporumuzun potensial üzvüdür. Diaspora ölkəmizin xaricdəki təbliğatını aparır. Bununla yanaşı, onlar həm də əllərində olan imkanlardan ölkəmizə fayda vermək barədə də düşünməlidir. İnvestisiya qoyulması məsələsi də zəruridir. Bunun üçün Azərbaycan qanunvericilik bazası və digər məsələlər baxımından olduqca cəzbedici ölkədir. Mən inanmıram ki, belə niyyətdə olan hansısa diaspor nümayəndəmizə ölkəmizdə maneçilik törədilsin. Ölkə başçısı ortaya belə prinsipal mövqe qoyursa, deməli, bu sahədə heç bir problem ola bilməz. Düşünürəm ki, bu niyyətdə olan iş adamı kimi tanınan soydaşlarımız da bunu istəyər. Sadəcə, onların arasında maarifləndirmə işləri artırmaq lazımdır. Bu işi milliyyətcə azərbaycanlı və qeyri-azərbaycanlı olan soydaşlarımızla aparmalıyıq. Hesab edirəm ki, ölkə başçısının son çıxışı bu sahədə irəliləyişə səbəb olacaq. Dövlətin əlaqədar strüktürləri bu istiqamətdə təbliğatı daha da gücləndirəcəklər. Prezidentin bu çağırışı elə ən böyük təbliğatdı. Hesab edirəm ki, diaspor nümayəndələrimiz bunu lazımınca qiymətləndirəcəklər".

**"Bu amil onları vadar edəcək ki, diaspordakı iş adamları ilə ciddi təmaslara keçsinlər"**

Xaricdə yaşayan diaspor fəalı Cəmil Mehdiyev qəzetimizə açıqlamasında bildirdi ki, bu məsələ onun da yaralı yeridir: "Prezident bu çağırışı təsadüfən etmir. Onun əlində dəqiq statistika var. Baxıb görür ki, bu sahədə vəziyyət ürəkaçan deyil. Siz elə bilirsiniz ki, bizim imkanlı azərbaycanlılar ölkəmizə investisiya qoymaq istəmir? Bunun səbəblərindən biri odur ki, köhnə idarəetmə metodunda bu amilin qarşısı alınırdı. Rayon icra hakimiyyəyyətinin başçıları bu niyyətdə olan soydaşlarımıza şərait yaratmaq əvəzinə onlara mane olurdular. Bunu sübut edən kifayət qədər faktlar var. Belə hallar da ümumi mənzərəyə təsir edirdi. Nəticədə itirən Azərbaycan olurdu. Artıq ölkədə yeni idarəetmə metodu tətbiq olunur. Ciddi struktur və kadr islahatları aparılır. Rayon icra başçılarının qarşısına təmsil olunduqları regiona investisiya cəlb etmək tapşırığı qoyulub. Bu amil onları vadar edəcək ki, diaspordakı iş adamları ilə ciddi təmaslara keçsinlər. Ümidvaram ki, bu çağırışdan sonra deyilən sahədə ciddi irəliləyişlərin şahidi olacağıq".

**"Hər bir investorda doğulub boya-başa çatdığı ölkənin iqtisadiyyatına töhfə verməyə məcbur edən milli hisslər olmalıdır"**

Qəribə hal budur ki, soydaşlarımızın sırasında hətta elələri var, dünyanın ən varlı adamları sırasındadırlar, ancaq Azərbaycana investisiya qoymaqda maraqlı görünmürlər. Ölkə iqtisadiyyatında xarici investisiyaların azalması həqiqətən də narahatlıq yaradır. İnvestisiyalar Azərbaycana daxil olanda onu yatıranın azərbaycanlı, yaxud qeyri-azərbaycanlı olması deyil, məhz ölkə iqtisadiyyatına gəlməsi daha çox əhəmiyyət kəsb edir. Hazırkı müşahidələrimiz onu göstərir ki, investisiya qoyuluşundakı azalma heç də Azərbaycanın hazırkı investisiya tələbatlarına və ehtiyaclarına adekvat deyil. Əslində ölkədə investisiya qoyuluşlarını genişləndirməyə xeyli imkan var. Maraqlıdır ki, ölkəmizə investisiya qoymaq imkanında olan azərbaycanlıların çoxu Rusiyada yaşayır. Lakin bütövlükdə Rusiyanın Azərbaycana qoyduğu investisiyanın həcmində bizim gözləntilərimiz qədər ciddi artım yoxdur. Yəni biz Azərbaycana yatırılan xarici investisiyaları nəzərdən keçirsək, məlum olacaq ki, Rusiya ön sıralarda deyil.

**Görünür, bizim həmyerlilərimizdə o hisslər azdır...**

Bəllidir ki, investisiya məsələsi bir az siyasi məsələdir və onu sırf ticarətlə əlaqələndirmək olmaz. Rusiyada yaşayan azərbaycanlıların ölkə iqtisadiyyatına investisiya qoyuluşlarında müəyyən ehtiyatlı yanaşmalarını həm də bununla izah etmək olar. Digər bir tərəfdən, görünür, onlar Azərbaycandakı investisiya mühitini və bazarı Rusiya ilə müqayisədə məqsədəuyğun hesab etmirlər. Çünki Rusiya böyük bazardır, orada investisiya yatırımı imkanları daha genişdir, eyni zamanda investisiyaya qoyulmuş vəsaitlərin geri qaytarılması üçün bazar imkanları həm coğrafi baxımdan, həm də kəmiyyət və miqyas nöqteyi-nəzərindən güclüdür. Bütün bunlara baxmayaraq, hər bir investorda doğulub boya-başa çatdığı ölkənin iqtisadiyyatına töhfə verməyə məcbur edən milli hisslər olmalıdır. Bu hisslər bazar payı, investisiya mühiti ilə bağlı olan problemlərdən daha üstün olanda investisiya gəlir. Görünür, bizim həmyerlilərimizdə o hisslər azdır. Çünki adətən ayrı-ayrı ölkələrin iqtisadiyyatına baxanda investisiya qoyuluşlarında həmin ölkələrin xaricdə yaşayan iş adamlarının payını yüksək görmüşük. Bu səbəbdən də xaricdəki soydaşlarımız olan iş adamları Azərbaycana investisiya qoymaqda maraqlı olmalıdır. Ortada möhkəm siyasi irada varsa, əminliklə deməkolar ki, onların yatırdıqları pullar həm də yaxşı qazanc gətirə biləcək. Çünki Azərbaycanın torpağı çox münbit, iqlimi gözəl, əhalisi qonaqpərvərdirsə, niyə pulu burda qazanmasınlar ki...

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**